**YUNESKO üzrə Azərbaycan Respublikasının Milli Komissiyası ilə bağlı əlavə tədbirlər haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

YUNESKO ilə Azərbaycan Respublikası arasında qarşılıqlı əlaqələrin inkişaf səviyyəsini nəzərə alaraq **qərara alıram:**

1. “YUNESKO üzrə Azərbaycan Respublikasının Milli Komissiyası haqqında” Azərbaycan Respublikası Prezidentinin 1994-cü il 21 fevral tarixli 62 nömrəli Sərəncamında (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1994-cü il, 3-4, maddə 48) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 1-ci bənddə “Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi” sözləri “Azərbaycan Respublikasının Prezidenti” sözləri ilə əvəz edilsin;

1.2. 3-cü və 4-cü bəndlər qüvvədən düşmüş hesab edilsin.

2. “YUNESKO üzrə Azərbaycan Respublikasının Milli Komissiyası haqqında” Azərbaycan Respublikası Prezidentinin 1994-cü il 21 fevral tarixli 62 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “YUNESKO üzrə Azərbaycan Respublikası Milli Komissiyasının Nizamnaməsi”ndə aşağıdakı dəyişikliklər edilsin:

2.1. preambulanın altıncı abzasında “Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi” sözləri “Azərbaycan Respublikasının Prezidenti” sözləri ilə əvəz edilsin;

2.2. “Milli Komissiyanın tərkibi” hissəsinin birinci abzasının birinci cümləsi çıxarılsın və həmin abzasda “xarici işlər naziri” sözləri “Azərbaycan Respublikasının Prezidenti” sözləri ilə əvəz edilsin.

*3. YUNESKO üzrə Azərbaycan Respublikası Milli Komissiyasının aşağıdakı tərkibi müəyyən edilsin:* [1]

***Komissiyanın sədri***

*Azərbaycan Respublikasının xarici işlər naziri*

***Komissiya sədrinin müavinləri***

*Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti*
*Azərbaycan Respublikası mədəniyyət nazirinin müavini*
*Azərbaycan Respublikası nəqliyyat, rabitə və yüksək texnologiyalar nazirinin müavini*
*Azərbaycan Respublikası təhsil nazirinin müavini*

***Komissiyanın üzvləri***[2]

*Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri*
*Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Gənclər siyasəti və idman məsələləri şöbəsinin müdiri*
*Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri*
~~*Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri*~~
*Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman)*
*Azərbaycan Respublikası ekologiya və təbii sərvətlər nazirinin müavini*
*Azərbaycan Respublikası gənclər və idman nazirinin müavini*
*Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri*
*Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin sədri*[3]
*Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) İdarə Heyətinin sədri*
*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru*
*“İçərişəhər” Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin İdarə Heyətinin sədri*
*Azərbaycan Kitab Cəmiyyətinin sədri*

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 15 sentyabr 2005-ci il
1006

**İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI**

1. 27 sentyabr 2006-cı il tarixli **466** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, 9, maddə 743**)
2. 2 sentyabr 2014-cü il tarixli **247** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik**

**Toplusu, 2014-cü il,  09, maddə 1027)**

3. 10 mart 2015-ci il tarixli **1091** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**"Azərbaycan" qəzeti, 11 mart 2015-ci il,  55, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il,  03, maddə 286** )
4. 11 iyul 2016-cı il tarixli **2193** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**"Azərbaycan" qəzeti, 12 iyul 2016-cı il,  147, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il,  7, maddə 1282** )
5. 7 avqust 2017-ci il tarixli **1574** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 8 avqust 2017-ci il,  170 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il,  8, maddə 1521**)
6. 29 avqust 2018-ci il tarixli **445** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**"Xalq" qəzeti, 30 avqust 2018-ci il,  192 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il,  8, maddə 1779**)
7. 12 noyabr 2019-cu il tarixli **1560** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il,  11, maddə 1751**)
8. 25 fevral 2020-ci il tarixli **1854** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**"Xalq" qəzeti, 27 fevral 2020-ci il,  44, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il,  2, maddə 170** )

-

**SƏRƏNCAMA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI**

-

---

[1]
27 sentyabr 2006-cı il tarixli **466** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il,  9, maddə 743**) ilə 3-cü bəndində «Polad Bülbüloğlu - Azərbaycan Respublikasının mədəniyyət naziri» sözləri «Əbülfəz Qarayev - Azərbaycan Respublikasının mədəniyyət və turizm naziri» sözləri ilə, «Əbülfəz Qarayev - Azərbaycan Respublikasının gənclər, idman və turizm naziri» sözləri «Azad Rəhimov - Azərbaycan Respublikasının gənclər və idman naziri» sözləri ilə əvəz edilsin.

2 sentyabr 2014-cü il tarixli **247** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il,  09, maddə 1027**) ilə 3-cü hissədə "**rabitə və informasiya texnologiyaları naziri** " sözləri "**rabitə və yüksək texnologiyalar naziri** " sözləri ilə əvəz edilmişdir.

10 mart 2015-ci il tarixli **1091** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**"Azərbaycan" qəzeti, 11 mart 2015-ci il,  55, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il,  03, maddə 286** ) ilə 3-cü hissə yeni redaksiyada verilmişdir.
Əvvəlki redaksiyada deyilirdi:
~~3. YUNESKO üzrə Azərbaycan Respublikası Milli Komissiyasının aşağıdakı tərkibi müəyyən edilsin:~~

~~**Komissiyanın sədri**~~

~~Elmar **Məmmədyarov** - Azərbaycan Respublikasının xarici işlər naziri~~

~~**Komissiya sədrinin müavinləri:**~~

~~Mahmud **Kərimov** - Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti~~
~~Misir **Mərdanov** - Azərbaycan Respublikasının təhsil naziri~~
~~Əbülfəz **Qarayev** - Azərbaycan Respublikasının mədəniyyət və turizm naziri~~
~~Əli **Abbasov** - Azərbaycan Respublikasının rabitə və yüksək texnologiyalar naziri~~

~~**Komissiyanın üzvləri:**~~

~~Hüseynqulu **Bağırov** - Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri~~
~~Azad **Rəhimov** - Azərbaycan Respublikasının gənclər və idman naziri~~
~~Novruz **Məmmədov** - Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının Xarici əlaqələr şöbəsinin müdiri~~
~~Fatma **Abdullazadə** - Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının Humanitar siyasət məsələləri şöbəsinin müdiri~~
~~Anar **Rzayev** - Azərbaycan Yazıçılar Birliyinin sədri~~
~~Vasif **Adıgözəlov** - Azərbaycan Bəstəkarlar İttifaqının birinci katibi~~
~~Fərhad **Xəlilov** - Azərbaycan Rəssamlar İttifaqının sədri~~
~~Rüstəm **İbrahimbəyov** - Azərbaycan Kinematoqrafçılar İttifaqının sədri~~
~~Maqsud **İbrahimbəyov** - Azərbaycan Respublikası Milli Sülh Komitəsinin sədri~~
~~Kamal **Abdullayev** - Azərbaycan Mədəniyyət Fondunun sədri~~
~~Zərifə **Salahova** - Azərbaycan Kitab Cəmiyyətinin sədri~~
~~Çingiz **Abdullayev** - Xalq yazıçısı~~
~~4. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.~~

11 iyul 2016-cı il tarixli **2193** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**"Azərbaycan" qəzeti, 12 iyul 2016-cı il,  147, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il,  7, maddə 1282** ) ilə 3-cü hissəsinin "Komissiya sədrinin müavinləri" bölməsində "**Əli Abbasov**" sözləri "**Ramin Quluzadə**" sözləri ilə, "Komissiyanın üzvləri" bölməsində " **Samir Nuriyev**" sözləri "**Əsgər Ələkbərov**" sözləri ilə əvəz edilmişdir.

7 avqust 2017-ci il tarixli **1574** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 8 avqust 2017-ci il,  170 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il,  8, maddə 1521**) ilə 3-cü hissəyə "**rabitə**" sözündən əvvəl "**nəqliyyat,**" sözü əlavə edilmişdir.

29 avqust 2018-ci il tarixli **445** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**"Xalq" qəzeti, 30 avqust 2018-ci il,  192** ) ilə 3-cü hissə ilə yaradılmış Milli Komissiyanın tərkibi yeni redaksiyada verilmişdir.
Əvvəlki redaksiyada deyilirdi:

~~***Komissiyanın sədri***~~

~~*Elmar Məmmədyarov – Azərbaycan Respublikasının xarici işlər naziri*~~

~~***Komissiya sədrinin müavinləri***~~

~~*Akif Əlizadə – Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti*~~
~~*Mikayıl Cabbarov – Azərbaycan Respublikasının təhsil naziri*~~
~~*Əbülfəs Qarayev – Azərbaycan Respublikasının mədəniyyət və turizm naziri*~~
~~*Ramin Quluzadə – Azərbaycan Respublikasının nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri*~~

~~***Komissiyanın üzvləri***~~

| | | |
|---|---|---|
| ~~*Kamal Abdullayev*~~ | – | ~~*Azərbaycan Respublikasının millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşaviri, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin Himayəçilər Şurasının sədri*~~ |
| ~~*Novruz Məmmədov*~~ | – | ~~*Azərbaycan Respublikası Prezidenti Administrasiyası rəhbərinin müavini, Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Xarici əlaqələr şöbəsinin müdiri*~~ |
| ~~*Fatma Abdullazadə*~~ | – | ~~*Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Humanitar siyasət məsələləri şöbəsinin müdiri*~~ |
| ~~*Elmira Süleymanova*~~ | – | ~~*Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman)*~~ |
| ~~*Hüseynqulu Bağırov*~~ | – | ~~*Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri*~~ |
| ~~*Azad Rəhimov*~~ | – | ~~*Azərbaycan Respublikasının gənclər və idman naziri*~~ |
| ~~*Hicran Hüseynova*~~ | – | ~~*Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri*~~ |
| ~~*Aslan Aslanov*~~ | – | ~~*Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) baş direktoru*~~ |
| ~~*Urxan Ələkbərov*~~ | – | ~~*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru*~~ |
| ~~*Əsgər Ələkbərov*~~ | – | ~~*Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin rəisi*~~ |
| ~~*Zərifə Salahova*~~ | – | ~~*Azərbaycan Kitab Cəmiyyətinin sədri".*~~ |

[2] 25 fevral 2020-ci il tarixli **1854** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**"Xalq" qəzeti, 27 fevral 2020-ci il, 44, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 2, maddə 170** ) ilə 3-cü hissənin "Komissiyanın üzvləri" bölməsində "**Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri**" sözləri "**Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri**" sözləri ilə, "**Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Humanitar siyasət məsələləri şöbəsinin müdiri**" sözləri "**Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri**" sözləri ilə əvəz edilmişdir və həmin hissədən "**Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri**" sözləri çıxarılmışdır.

[3] 12 noyabr 2019-cu il tarixli **1560** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 11, maddə 1751**) ilə 3-cü hissəsinin "Komissiyanın üzvləri" bölməsinə "**Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) İdarə Heyətinin sədri**" sözlərindən əvvəl "**Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin sədri** " sözləri əlavə edilmişdir.